# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

**Antiterror əməliyyatlarının 1-ci ildönümünə az bir zaman qaldığı vaxtda günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən və KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqaləsini sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!**



## CAHANGİROV TURAL QƏLƏM HÜSEYN OĞLU

Şəhid kiçik leytenant Tural Qələmhüseyn oğlu Cahangirov 1 iyul 1991-ci ildə Yardımlı rayonunun Şıxlar kəndində anadan olmuşdur. 1997-ci ildə Yardımlı rayon Şıxlar kənd tam orta məktəbinə qəbul olmuşdur. 2003-cü ildə ailəsi ilə birgə Bakının Pirallahı rayonunda məskunlaşmış və təhsilini Pirallahı rayonunda yerləşən Bakı şəhər 168 nömrəli tam orta məktəbdə davam etdirmişdir. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə kəşfiyyat manqa komandiri vəzifəsində xidmət etməyə başlamışdır. Hərbi xidmət müddətində dəfələrlə hərbi hissə rəhbərliyi tərəfindən ailəsinə təşəkkür məktubları, özünə isə fəxri fərman və təşəkkürnamələr təqdim olunmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra Pirallahıya qayıdan Tural burada zavodların birində operator kimi çalışmışdır. Vətən eşqi ilə yaşayan vətənpərvər qəhrəmanımız erməni qəsbkarlarının 27 sentyabr 2020-ci ildə torpaqlarımıza əl uzatdığı zaman qəlbindəki qisas odunu söndürmək üçün könüllü olaraq müharibəyə qatılmaq istəyir. Turalın bu istəyi baş tutmasa da vətənə xidmət etmək eşqi ilə yaşayan qəhrəman 2021-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət etmək üçün müvafiq kurslara yazılır. Kursu müvəffəqiyyətlə başa vurduqdan sonra azad etmək üçün çırpındığı Qarabağ torpağında - Laçın şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayır. Daha sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 17 fevral 2022-ci ildən 6 may 2022-ci ilədək kəşfiyyat taqım komandirinin müavini vəzifəsində xidmət etmək üçün müvafiq kurslardan keçmiş və gizir rütbəsinə yüksəlmişdir.

Tural Cahangirov 2022-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə də iştirak etmiş, düşmən təxribatının qarşısını alarkən böyük qəhrəmanlıq göstərmişdir. Döyüş gedişatında 4 gün ac-susuz neytral zonada qalmış və sonda sağ qalaraq geri qayıtmağı bacarmışdır.

Döyüşlərdən sonra 20 noyabr 2022-ci ildən 28 yanvar 2023-cü ilədək Gizirlərin Zabit Vəzifələrinə Hazırlığı Kursunu yüksək göstəricilərlə motoatıcı ixtisası üzrə bitirmişdir. 6 fevral 2023-cü ildə Müdafiə Nazirliyi tərəfindən kiçik leytenant hərbi rütbəsinə layiq görülmüş və Respublika Baş Prokurorluğu tərəfindən hədiyyə ilə təltif edilmiş Tural Cahangirov Laçın şəhərində hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Tural Cahangirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 iyun 2023-cü il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Qəhrəmanımıza bu medal 2022-ci ilin sentyabrında baş verən döyüşlərdə olan iştirakına görə verilmişdir.

Tural Cahangirov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdam, Ağdərə və Xankəndi istiqamətində gedən döyüşlərdə böyük qəhrəmanlıq və igidlik göstərmiş, Azərbaycanımızın bütövlüyünə tam qovuşması uğrunda sinəsini güllələrə sipər etmişdir. Kiçik leytenant Tural Cahangirov 19 sentyabr 2023-cü ildə qızı Fatimənin doğum günündə Ağdərə-Xankəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi Pirallahı rayonunda dəfn edilmişdir. Şəhidimiz ailəli idi, Fərid adlı oğlu və Fatimə adlı qızı yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Tural Cahangirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "İgidliyə görə" medalı ilə təltif edilmişdir.



## HƏSƏNOV KƏRƏM AKİF OĞLU

Şəhid baş leytenant Kərəm Akif oğlu Həsənov 1 yanvar 1996-cı ildə Gəncə şəhərində anadan olmuşdur. 2002-ci ildə Gəncə şəhər Mir Cəlal Paşayev adına 39 saylı tam orta məktəbin birinci sinfinə daxil olmuşdur. Məktəb illərində məktəbdaxili hərbi qrup olan "Şahinlər" qrupuna üzv olaraq hərbi təlimlərə qoşulmuşdur. İdman sahəsində də ölkəmizi layiqincə təmsil edən Kərəm kikboksinq üzrə idman yarışlarında 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülmüşdür. 2013-cü ildə təhsilə başladığı məktəbdən məzun olduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2017-ci ildə ali hərbi məktəbi tank bölmə, hissə və birləşmələrinin döyüşə tətbiqi ixtisası üzrə bitirən Kərəm həmin ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə leytenant rütbəsində hərbi vəzifəsinin icrasına başlamışdır. Tank komandiri olan Kərəm Həsənov Bakı şəhərində, Bərdə, Goranboy, Mingəçevir, Ağcabədi və Beyləqan rayonlarında yerləşən "N" saylı hərbi hissələrdə nümunəvi zabit kimi hərbi xidmət etmişdir. Qəhrəmanımız 26 iyun 2018-ci ildə Müdafiə naziri cənab Zakir Həsənov tərəfindən "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdir. O, 2020-ci ildə baş leytenant rütbəsinə yüksəlmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan Kərəm Həsənov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın və Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, böyük şücaət göstərərək fərqlənmişdir. Döyüş zamanı qəhrəmanımızın tankı minaya və sonra düşmən mühasirəsinə düşsə də qəhrəmanımız sona qədər mübarizə aparmış, tank savaşından əsgər yoldaşları ilə birgə qalib və sağsalamat çıxmağı bacarmışdır. Vətən müharibəsi bitdikdən sonra Kərəm Həsənov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Döyüşdə fərqlənməyə görə" medalı və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Müharibədən sonra xidmətinə davam edən Kərəm Həsənov 24 oktyabr 2022-ci ildən 24 dekabr 2022-ci ilədək Komando Dağ Təlim Mərkəzində keçirilmiş 10-cu qəbul Komando başlanğıc kursunu müvəffəqiyyətlə bitirmişdir. Qəhrəmanımız 25 dekabr 2022-ci ildən Qubadlı rayonunun Muradxanlı kəndində yerləşən "N" saylı hərbi hissədə xidmətinə davam edirdi.

Kərəm Həsənov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocavənd istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Baş leytenant Kərəm Həsənov 20 sentyabr 2023-cü ildə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı sol qolundan güllə yarası alaraq qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi 22 sentyabr 2023-cü ildə Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, Rüqəyyə adlı qızı yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Kərəm Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## MƏMMƏDOV SAMİR MƏMMƏD OĞLU

Şəhid kiçik çavuş Samir Məmməd oğlu Məmmədov 15 iyun 1988-ci ildə Füzuli rayonunun Qoçəhmədli kəndində anadan olmuşdur. 1996-cı ildə Füzuli rayonunun Fin qəsəbəsində yerləşən Füzuli rayon 59 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoymuşdur. 2007-ci ildə həmin məktəbdən məzun olmuşdur. Həmin ilin oktyabrında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmış və hərbi xidmətə yollanmışdır. 2009-cu ildə hərbi xidmətini başa vurmuş və bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə 20 aprel 2014-cü ildən Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq xidmətini davam etdirmişdir.

1-5 aprel 2016-cı ildə Aprel döyüşləri baş tutduğu zaman Samir Məmmədov da bu döyüşlərdə iştirak etmişdir. Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsinin Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmasında, düşmənin "Ohanyan səddi"nin darmadağın edilməsində və düşmənə layiqli dərs verilməsində Samir Məmmədovun böyük xidmətləri olmuşdur. Samir Məmmədov döyüşlər bitdikdən sonra hərbi xidmətinə davam etmişdir. Hərbi xidmət müddətində 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Samir Məmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə düşmənləri darmadağın edərək vuruşmuş, böyük şücaət və igidlik göstərərək fərqlənmişdir. Xocavənd rayonunun Hadrut qəsəbəsində gedən döyüş zamanı snayper gülləsi ilə başından vurularaq ağır yaralanan Samir hospitala yerləşdirilmiş, başındakı snayper gülləsi orada çıxarılmışdır. Vətən müharibəsindəki xidmətlərinə görə Samir Məmmədov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Füzulinin



azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Samir Məmmədov Vətən müharibəsindən sonra hərbi xidmətini davam etdirirdi. Qəhrəmanımız Komando Briqadasında kiçik çavuş olaraq hərbi xidmət edirdi.

Samir Məmmədov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocalı istiqamətində gedən döyüşlərdə sinəsini güllələrə sipər edərək böyük rəşadət və hünər nümayiş etdirmişdir. Kiçik çavuş Samir Məmmədov 19 sentyabr 2023-cü ildə Xocalı rayonunun Qarabulaq kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı başından aldığı snayper gülləsi nəticəsində qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimiz subay idi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Samir Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**SEVİNDİK NƏSİBOĞLU**
***11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü***

***(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)***

